*Mustafa ÇƏMƏNLİ*



# İMARƏT MƏZARLIĞI

Dünyasını çox illər öncə dəyişmiş hər hansı sənətkarın kitabını tərtib edərkən daxilən səfərbər oluram ki, bəlkə barəsində yeni bir fakt, tarixi bir şəkil, yadigar bir əşya əldə etdim. Məhz bu niyyətlə kitabxanalara, arxiv və muzeylərə müraciət etdim ki, bəlkə, Xurşidbanu Natəvanın 190 illiyi münasibətilə tərtib edəcəyim kitabda vermək üçün yeni bir fakt tapdım. Bu niyyətlə şəxsi arxivimi araşdırarkən “Elm” qəzetinin 25 dekabr 2001-ci il (№ 35–36 (600–601) tarixli sayında tarix elmləri doktoru, tarixçi-epiqrafist, şərqşünas, AMEA-nın müxbir üzvü Məşədixanım Nemətin “Şuşa xanı İbrahimxəlil xan və övladlarının epitafiyaları” məqaləsi qarşıma çıxdı. Bu epitafiyalarda bu günə qədər diqqətdən kənarda qalmış elə bir tutarqayla rastlaşdım ki, əməllicə duyğulandım. Doxsan iki il ömür sürmüş, 60 illik elmi fəaliyyəti dövründə Azərbaycan bölgələrini qarış-qarış gəzərək, 2500-dən çox epiqrafik abidəni toplayıb oxuyan, çoxsaylı monoqrafiyaların, 6 cildlik “Azərbaycanın epiqrafik abidələri” toplusunun müəllifi Nemətova Məşədixanım Sədulla qızını (1924–2016) minnətdarlıq hissilə yad edib, Allahdan ona rəhmət dilədim.

Əgər mərhum Məşədixanım Nemətin “Şuşa xanı İbrahimxəlil xan və övladlarının epitefiyaları” məqaləsini oxumasaydım, hamı kimi mən də İbrahimxəlil xanın oğlu, sonuncu Qarabağ xanı Mehdiqulu xanın ancaq Xurşidbanu Natəvan adlı qızının olduğuna şəkk etməzdim. Məşədixanım Nemət yazır: “Azərbaycan Dövlət Tarix Arxivi, ruhanilərin fondunda (290, siyahı 17, N11447) İbrahimxəlil xanın və övladlarının başdaşlarındakı kitabələrə rast gəlmişəm. Kitabələr Rusiya çarı knyaz Nikolay Mixayloviçin tapşırığı ilə toplanmışdır. Çar Nikolay tapşırmışdı ki, bütün məscidlərin və görkəmli şəxsiyyətlərin məzar daşları və kitabələr tədqiq və çap olunsun”.

Sözümüzün əvvəlində dediyimiz kimi, bu məqalədə mənim diqqətimi Mehdiqulu xan Cavanşirin Xurşidbanu Natəvandan da əvvəl övladının ol-



duğunu, lakin çox körpə ikən vəfat etdiyi bilgisi cəlb etdi. Məşədixanım Nemətin farsca yazılmış epitafiyalardan birinin tərcüməsini oxucuların diqqətinə çatdırmaq istəyirəm: **"İbrahimxəlil xanın oğlu Mehdiqulu xanın övladının epitafiyası. Adı qeyd olunmamışdır.**

**Ölüm elə bir kasadır ki, hamı ondan içməlidir və qəbir elə bir evdir ki, hamı oraya daxil olmalıdır. Quran 55-26. Mehdiqulu xanın bağçasının təzə gülünü /alicənablıq gülüstanından təzə qonçanı /ölümün güclü küləyi Xəlilin gülzarından qopardı/ürəyə qəm atəşi saldı. /Axtardım və tamam tarixini/ gizli səs dedi ki, Cənnət bağı oldu. 1244/1828-29 il.**

**Əbcəd hesabı ilə "bağ-e İrəm"- cənnət bağı h. 1244-cü ilə təsadüf edir."**

Bu epitafiyadan aydın olur ki, Mehdiqulu xan Cavanşirin Xurşidbanu Natəvandan qabaq – hicri 1244, miladi 1828/29-cu ildə də övladı olmuş, lakin qönçə yaşında (bəlkə də 40-ı çıxmamış) vəfat etmişdir.

Bu təqdimatda təəssüf hissi ilə yazılmış bir bilgi də var. Ruhu şad olmuş Məşədixanım Nemət yazır: "Şuşa və Ağdam qəbiristanlıqlarından toplanmış kitabələr haqqında Şuşa şiə qazisi təqdim etdiyi 8.V.1910-cu il tarixli sənəddə qeyd olunan kitabələr maraqlıdır.

Biz hələ 40 il bundan əvvəl (1961-ci ildə – M.Ç.) Ağdam və Şuşada apardığımız tədqiqatlar zamanı Ağdamdakı məzarıstan ərazisində bağ salındığı üçün iki türbə binası və onların yanında Natəvanın məzarından başqa heç bir abidə qalmamışdı".

Bu sətirləri oxuyanda biganəliyimizdən, keçmişimizə sayğısızlıqdan, yaddaşsızlıqdan, sadəcə, xəcalət çəkdim. Bu övliya qəbiristanlığında basdırılanlar Azərbaycanın tarixində, mədəniyyətində, ictimai-siyasi həyatında rolu olan insanlardır. Bağ salmaq üçün başqa bir yeri yox, tarixi əhəmiyyəti olan övliya qəbiristanlığını seçən o keçmiş səlahiyyət sahibi hər cür nifrətə layiqdir.

Yəqin o bolşevik təfəkkürlü gerizəkalı fikirləşib ki, muzdur hökumətinin torpağında xanların, xanzadələrin, əsli-kökü olan əsilzadələrin məzarlarını qoruyub saxlamağa nə hacət! Min təəssüf!

Azərbaycanı öz müstəmləkəsi hesab edən Çar Nikolayın "bütün məscidlərin və görkəmli şəxsiyyətlərin məzar daşları və digər kitabələr tədqiq edilsin və çap olunsun" göstərişi ilə bizim tarixi irsimizə münasibətimizi tərəziyə qoyanda qədirbilməzliyimizə, sahiblik hissimizin zəifliyinə təəssüflənməmək olmur.

Əlbəttə, bizi əsarət altında saxlayan Çar Nikolay da, onun Qafqazı idarə edən canişinləri də bizim keçmişimizə, tariximizə ona görə maraq

göstərmirdilər ki, xalqımızı çox sevirdilər. Xeyr! Məqsəd xalq olaraq bizi daha yaxından tanımaq, həssas xüsusiyyətlərimizə bələd olub, üstümüzdə ağalıqlarının ömrünü uzatmaq idi. Qarabağa hakim təyin olunan general Kolyubakinin oğlu podpolkovnik Mixail Petroviç kapitan Mirzə Adıgözəl bəydən, Qafqzın canişini knyaz Mixail Semyonoviç Voronsovun sifarişi ilə Molla Pənah Vaqif öldürüldükdən sonra İbrahimxəlil xanın vəziri olmuş Mirzə Camal Cavanşirə Qarabağın, Qarabağ xanlarının tarixini yazmağı sifariş etmələrində də məqsədləri bu idi. Məsəl var, çomağın iki ucu olduğu kimi, hər bir gizli niyyətin də işıq gələn tərəfi də vardır. Əgər adlarını çəkdiyimiz bu çar məmurları vaxtında tarixi keçmişimizlə maraqlanmasaydılar, bu gün tez-tez istinad etdiyimiz Mirzə Adıgözəl bəylə Mirzə Camal Cavanşirin Qarabağnamələri yazılmazdı.

Çar Nikolayın göstərişilə toplanıb yazılmış "Şuşa xanı İbrahimxəlil xan və övladlarının epitafiyaları" da bu baxımdan çox əhəmiyyətlidir. Çünki Ağdamdakı İmarət deyilən ərazidə, övliya qəbiristanlığında dəfn olunanlardan bu gün yalnız iki türbə, bir də Xurşidbanu Natəvanın məzarı qalıb. Sual oluna bilər, Qarabağın xanları və onların övladlarını niyə Şuşa qalasında yox, Ağdamda – İmarətdə gətirib dəfn edirdilər. Səbəb çox sadədir. Qarabağ xanlığının banisi, müasirlərindən fərqli olaraq, Bayat, Tərnəküt (Şahbulaq) və Şuşa kimi yeni şəhər-qalalar salmış Pənahəli xan 12 illik hakimiyyəti dövründə daxili çəkişmələrə son qoymuş, 1757-ci ildə Məhəmmədhəsən xan Qacarın (Ağaməhəmməd şah Qacarın atası), 1759-cu ildə Fətəli xan Əfşarın Şuşaya hücumlarının qarşısını almışdı. Sonuncu ilə 6 ay mühasirədə qaldıqdan sonra sülh sazişi bağlamış, böyük oğlu İbrahimxəlil ağanı ona girov verməyə məcbur olmuşdu. Pənahəli xan üçün oğlunun ayrılığına dözmək çox çətin idi. Belə bir vaxtda, 1761-ci ildə şahlıq taxtı uğrunda rəqibi Fətəli xan Əfşarla döyüşdə məğlub olan Kərim xan Zənd hiyləyə əl ataraq Azərbaycan xanlıqlarının hakimlərinə məktublar yazıb onları Fətəli xana qarşı birləşməyə çağırırdı. O, 1762-ci ildə Pənahəli xana göndərdiyi məktubda yazırdı: "Fətəli xan sadəcə düşmən deyil, o, eyni zamanda bizimlə qanlıdır. Gərək birləşmək uğrunda bütün qüvvəni əsirgəməyəsən. Məhz bu yolla həm intiqam almaq, həm də oğlunuzu xilas etmək mümkün olar. Bununla həm siz sevinərsiniz, həm də biz öz arzumuza çatarıq".

Pənahəli xan Kərim xanın təklifini qəbul etmişdi. Fətəli xan Əfşarın müdafiəyə çəkildiyi Urmiyanı Kərim xan Zəndin birləşmiş qoşunu 9 ay mühasirədə saxlamışdı. Nəhayət, 1763-cü ilin ortalarında Urmiya ələ keçirilmişdi. Beləcə, Pənahəli xanın oğlu İbrahimxəlil ağa girovluqdan azad edilmiş, xanlıq fərmanı ilə Qarabağa qayıtmışdı. Pənahəli xan isə Kərim xanın təklifi ilə başqa xanlarla yanaşı, qələbənin nəşəsini yaşamaq üçün Şiraza getmişdi. Şirazda aldandığını başa düşən Pənahəli xan pərişan olub peşmanlıq keçirmiş və 1763-cü ildə Şirazda vəfat etmişdir. Vəsiyyətinə görə, onun "Cənazəsini böyük hörmətlə Qarabağa gətirib, indi Ağdam adı ilə məşhur olan, özünün satın aldığı halal mülkündə dəfn

etdilər" (Mirzə Camal Cavanşir). Yeri gəlmişkən, indi Azərbaycan Tarix Muzeyində saxlanan Pənahəli xanın məzarının mərmər başdaşında onun vəfat tarixi yanlış olaraq 1759-cu il göstərilmişdir.

Əsas mətləbdən ayrı düşsək də, aydınlıq üçün deyək ki, Pənah xanın ulu babası İbrahimxəlil ağa I Şah Abbas Səfəvinin dövründə Cavanşir elinin rəisi (başçısı) olmuşdur. Nadir şahın fəaliyyətinin ilk illərində isə Cavanşirlərin başçısı Pənahəli xanın atası III İbrahimxəlil idi. Bu nəsildə belə bir adət varmış, ata doğulan ilk oğul övladına atasının adını verirmiş. Bu ənənə uzun illər davam etmişdir.

Təsadüfi deyildir ki, Şuşa şəhərinin banisi III Pənahəlidir. Ona qədər olan birinci, ikinci Pənahəlilər hər biri öz oğul övladına İbrahimxəlil adını vermişlər.

Bu xeyli uzun ricətdən sonra Məşədixanım Nemətin vaxtilə mətbuata çıxartdığı "Şuşa xanı İbrahimxəlil xan və övladlarının epitafiyaları" mövzusuna qayıdaq. Güman edirik ki, övliya qəbiristanlığından əldə edilmiş epitafiyalar heç də Pənahəli xanın törəmələrinin hamısını əhatə etmir. Məşədixanım Nemətin oxuculara təqdim etdiyi epitafiyalar İbrahimxəlil xana, Mehdiqulu xana, onun adı qəbir daşına yazılmayan övladına, Xan qızı Xurşidbanu Natəvana, onun oğlu Mehdiqulu xan Usmiyevə (1855–1900), Cavanşir Abbas bəyə, podpolkovnik Kərim ağaya məxsusdur. Görünür, 1910-cu ildə övliya qəbiristanlığındakı bütün qəbirüstü kitabələr oxunub yazıya alınmamışdır. Məşədixanım Nemət 1961-ci ildə Ağdamda – İmarətdə övliya qəbiristanlığını tədqiq edəndə, özünün yazdığı kimi, iki türbə, bir də Natəvanın qəbri olub. Halbuki 1806-cı ildə mayor Lisianeviç tərəfindən ailəlikcə güllələbaran edilən İbrahimxəlil xanın arvadı Tubu xanım, qızı Səltənət bəyim, on iki yaşlı oğlu Abbasqulu ağa, sağlığında rəhmətə getmiş vəliəhd Məhəmmədhəsən ağa, qardaşları Mehralı bəy, Talıbxan bəy, qızı Gövhər ağa (1796–1888), nəvəsi general Cəfərqulu xan Nəva (1780–1867) və başqaları başqa bir qəbiristanlıqda dəfn oluna bilməzdilər. Görünür, yuxarıda yazdığımız kimi, Azərbaycanda Sovet hökuməti qurulandan sonra bolşeviklər xanlığın övliya qəbiristanlığına qənim kəsilmişlər. Tarixi irsi itirmək üçün, Məşədixanım Nemətin yazdığı kimi, məzarlığı məhv edib yerində bağ salmışlar.

Bu övliya qəbiristanlığı xan nəsli üçün o qədər əziz imiş ki, 1897-ci ildə Xan qızı Natəvan Şuşada vəfat edəndə xalq ehtiram əlaməti olaraq onun cənazəsini 37 km məsafəni piyada qət edərək, gətirib İmarət məzarlığında torpağa tapşırmışdı.

Mən özüm gənc yaşlarımda Qarabağ xanlarının türbələrini, Xan qızı Natəvanın məzarını, Pənahəli xanın ağ günbəzli sarayını ziyarət etmişdim. Sonra özümü Pənahəli xandan yadigar qalmış iri gövdəli bir cüt xan çinarın kölgəsinə vermişdim (yeri gəlmişkən, Pənahəli xanın sağlığında o ərazidə iki bağı da olub). İmarəti göz bəbəyitək qoruyan Məhərrəm kişi ilə də orada tanış olmuşdum. İmarətin mühafizəçisi idi. Məhərrəm kişi Qarabağın tarixindən oxuyub-eşitdiklərindən danışmışdı. Xalq rəvayətinə

əsaslanıb Pənahəli xanın İmarət deyilən yerin ərazisini iki seyid qardaşlardan qızıl pulla aldığını söyləmişdi.

O anda mənim yatsam yuxuma da girməzdi ki, bir gün gələcək, erməni daşnakları havadarlarının dəstəyi ilə başqa şəhər və kəndlərimiz kimi, Ağdamı da işğal edəcəklər. 27-28 il başqa torpaqlarımız kimi Ağdamın da həsrəti ilə yaşadıq. Doğru demişlər ki, hər şeyin zamana ehtiyacı var. 27 sentyabr 2020-ci ildə başlayan 44 günlük Vətən müharibəsi 10 noyabrda Ermənistanın məğlubiyyəti ilə başa çatdı. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" sevinc, qürur dolu müjdə xəbəri Azərbaycan xalqının yaddaşından heç vaxt silinməyəcəkdir!

Tanrıma minnətdaram ki, 27 il sonra, 2021-ci il 28 mayda Ağdamda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirak etdiyi təməlqoyma mərasimində mən də iştirak edirdim. Yol boyu yerlə-yeksan edilmiş kəndləri görmək çox əzabverici idi. Bu ilk gedişimizdə sabahın Ağdamında həyata keçiriləcək layihəsini gördük. Fürsət tapıb bir neçə həmkarımla yeganə salamat qalmış məscidin qarşısına gedib şəkil çəkdirdik.

İkinci dəfə Ağdama 5 sentyabr 2021-ci ildə getdik. Bu səfərimiz Ağdam nümayəndəliyinin təşəbbüsü ilə baş tutmuşdu. Ağdamı, bizim ağ şəhərimizi tarmar edilmiş gördük. İmarətə gedəndə nigaranlıq içindəydim. Övliya məzarlığına çatanda gözlərimə inanmadım. Xan qızının məzarı barbarcasına dağıdılmış, başdaşını əvəz edən büstü isə gözə dəymirdi. Yəqin ki, işğalçılar oğurlayıb aparmışdılar.

İnanıram ki, Ağdam şəhəri yeni layihə əsasında tikiləcək, Pənahəli xanın övliya məzarlığı da qaydasına salınacaqdır. Arzu edərdim ki, İmarətdə dəfn olunan Pənahəli xanın, İbrahimxəlil xanın, Mehdiqulu xanın, Xurşidbanu Natəvanın, onun övladları Xanbikənin, Mehdiqulu xan Vəfanın, general Cəfərqulu xan Nəvanın büstləri qoyulsun. Xanların övliya qəbiristanlığı ziyarətgaha çevrilsin. Belə olarsa, perik düşmüş xanların, bəyzadələrin, bəyimlərin, onların epitafiyalarını üzə çıxartmış Məşədixanım Nemətin də ruhu şad olar!

***16 aprel 2022-ci il***

# ŞUŞA XANI İBRAHİMXƏLİL XAN VƏ ÖVLADLARININ EPİTAFİYALARI

Azərbaycan Dövlət Tarix Arxivi, ruhanilərin fondunda /290, siyahı 17, N 11447/ İbrahimxəlil xanın və övladlarının başdaşlarındakı kitabələrə rast gəlmişəm.

Kitabələr Rusiya çarı knyaz Nikolay Mixayloviçin tapşırığı ilə toplanmışdır. Çar Nikolay tapşırmışdı ki, bütün məscidlərin və görkəmli şəxsiyyətlərin məzar daşları və digər kitabələr tədqiq olunsun. Za-

qafqaziya Şiə ruhani idarəsi 27.IV.1910-cu ildə bütün qazilərə məktub göndərir ki, kitabələri toplayıb rus dilinə tərcüməsi ilə Ruhani idarəsinə təqdim etsinlər. \vər. 1.2\.

Cavab olaraq Quba Qəzavatxanası Şiə ruhani idarəsinə qəbiristanlıqlarda dəfn olunmuş alim və möhtərəm şəxslərin məzar daşlarının siyahısını təqdim edir, məscid üzərində kitabə yoxdur yazır. \vər. 80\.

Göyçay Şiə Qəzavatxanasından Ruhani idarəsinə göndərilən 8.V.1910-cu il tarixli məktubda yazırlar ki, məscid üzərində kitabə yoxdur. Sənəddə nəciblər – görkəmli şəxsiyyətlər haqqında 4 səhifəlik məlumat təqdim olunmuşdur.

Şuşa və Ağdam qəbiristanlıqlarından toplanmış kitabələr haqqında Şuşa Şiə qazisinin təqdim etdiyi 8.V.1910-cu il tarixli sənəddə qeyd olunan kitabələr maraqlıdır.

Biz hələ 40 il bundan əvvəl Ağdam və Şuşada apardığımız tədqiqatlar zamanı Ağdamdakı məzarıstan ərazisində bağ salındığı üçün iki türbə binası və onların yanında Natəvanın məzarından başqa heç bir abidə qalmamışdı.

Şuşa xanı Pənah xanın mərmər başdaşısı isə AMEA Tarix muzeyindədir. ("Корпус эпиграфических памятников Азербайджана". I cild, N 239). Qeyd olunan fondda aşağıdakı abidələr haqqında məlumat var:

**Ağdam mülkündə.**

I\ İbrahimxəlil xanın türbəsindəki məzar daşı.

Kitabənin mətni ərəbcədir, tərcüməsi belədir:

O/ Allah/ əbədidir. Quran, 55-26,27

Bu qəbir rəhmətlik, günahları bağışlanmış İbrahimxəlil Sarıcalı Cavanşirindir. 1154/1741-42.

Buradakı tarix səhvdir. Tarixçi Mirzə Camalın yazdığına görə, İbrahimxəlil xan h. 1182/1768-69-cu ildə Şuşada came məscidini, h. 1193/1783-84-cü ildə Şuşa qalasının divarlarını təmir edib, h. 1203/1788-89-cu ildə başqa tikintilər inşa etdirmişdir.

**2. Ağdam mülkündə.**

General Mehdiqulu xanın abidəsindəki yazı ərəb-fars dillərindədir. Haza qəbr əl-mərhum əl-məğfur general Mehdiqulu Sağəre omr-e xan çu şod xali bin İbrahimxəlil xan /kəşt tarixəş əz sağər/dər 20 cumada al avval, ruz-e se şənbe 1261.

**Tərcüməsi:** Bu qəbir İbrahimxəlil xanın oğlu rəhmətlik, günahları bağışlanmış general Mehdiqulu xanındır.

Elə ki, xanın ömür kasası boşaldı / Tarixi tyəsadüf etdi sağərə/ kasaya/ 20 cəmadil-ül-əvvəl, se-şənbə günü, 1261/8.V.-7.VI.1845

Sağər əbcəd hesabı ilə 1261-ə bərabərdir. /Əlif-1, sin-60, re-200; ğayn-1000/.

**3. Yenə orada.**

İbrahimxəlil xanın oğlu Mehdiqulu xanın övladının epitafiyası. Adı qeyd olunmamışdır.

Əl-movtu kasun koll nasun şarebuhu və əl-qəbru darun koll nasun daxelehu /koll mən əleyha fanə. Novqol-e qolşən-e Mehdiqulu xan /ğonçe-ye taze ze bustan-e kərəm/ sər-sər-e mərg ze qolzar-e Xəlil/ kənd, əfkənd be del ateş-e ğəm /cest-o-cu kərdəm-o tarix-e təmam/ hatefi qoft ke şod bağ irəm.

**Tərcüməsi:** Ölüm elə bir kasadır ki, hamı ondan içməlidir və qəbir elə bir evdir ki, hamı oraya daxil olmalıdır. Quran, 55-26. Mehdiqulu xanın bağçasının təzə gülünü /alicənablıq gülüstanından təzə qonçanı /ölümün güclü küləyi Xəlilin gülzarından qopardı /ürəyə qəm atəşi saldı. /Axtardım və tamam tarixini/ gizli səs dedi ki, Cənnət bağı oldu. 1244/1828-29 il.

Əbcəd hesabı ilə "bağ-e İrəm" – cənnət bağı h. 1244-cü ilə təsadüf edir.

**4. Yenə orada.**

General Mehdiqulu xan Cavanşirin qızı Xurşidbanu Begimin epitafiyası: Huva al-baqi, huva al-hayy əlləzi layəmut /haza mərqəd əl-mərhumət əl-məğfurət Xorşid /Banu həkim Hezar şkuh məra dar cəfa-ye dovran əst /ke səxt kine-ye əhd-e sosti peyman əst. /Vəfa nəkərd kəsira sepehr buqələmun./ Be hər ke minegəri əz fələk dər əğfan əst /ze Xosrovan-e cəhandır evlya-ye kebarəm /koca neşane-ye həstira şovkət-o-şan əst/ hər on be sava ke qostərde şod be nemət-o naz/ze ust covr-e fələk paymal viran əst. / Əgər bər tinət-e aləm yeki bud şadi /bəla-o-mehnət-e u-səd hezar çəndon əst. / Pərvər nəşayərd donya ke del dər-u bəndənd. / Dər in ribat do dər key qərar mehman əst. / Yegane govhər-e dorc-e şərəf zal-e Xəlil /Çu dərkən şode əknun bexak yeksan əst./ Fəximə Xorşid xanom səbine-ye xan /ke yadigar-e bolənd əxtəran-e dovran əst./ Be dağ-e del ze cəhan rəft siz şod əz can /hənuz kərd bəlayəş ze ğəm bedaman əst./ Yeki be sal-e vəfatəş əfzud qoft fəna /Rəvan-e əqdəs-e u-dər cinan-e yəzdan əst./ Rəbiəl-sani 1314. Koll nəfsun zayiqət ul-movtə.

**Tərcüməsi:** O/ Allah/ diridir, ölməzdir. Bu qəbir rəhmətlik, günahları bağışlanmış alim (ağıllı) Xurşidbanunundur.

Minlərlə qorxum mənim dünyanın cəfasındadır. / ki o ağır (çətin), kinli pis əhd, zəif peymandır. / Etibarsız tale kimsəyə vəfa etmədi / Kimə baxırsansa taledən ahu-zarda görürsən / Xosrovlardan, cahandarlardan, kübar övliyalardan / şövkət-şanlarından harada bir nişanə qalmışdır. / Hər kiməsə beləcə naz-nemət qismət etdi/ Ondandır ki, fələkin zülmü viran və paymal etdi./ Əyər kimsə dünyanın tinətindən (təbiətindən) şad olubsa/ onun bəla və mehnəti yüz minlərlə olub/ Dünya himayə edən deyil ki, ona ürək bağlayasan/ Bu iki darvazalı karvansarada kim qərar tuta bilər./ Zal (qocaman) Xəlilin şərəf qutusunun yeganə gövhəri/ Qoparıldı, indi torpaqla yeksandır.

Xan qızı hörmətli Xurşud xanım /dövranın uca ulduzlu yadigarı idi./ Candan doydu, ürəyi dağlı dünyadan getdi. / İndi onun bəlası ətəyə dolmuş qəmdir bizə./ Biri vəfat ilinə artırdı dedi, fəna /onun yeri ilahələr cənnətidir. Rəbiül-sani 1314./ Bütün yaranmışlar ölümü dadmalıdır.

Rəbiül-sani 1314=9.IX–8.X.1896 il (1897-ci il olmalıdır – M.Ç.).

**5. Yenə orada.**

Genaral kn. Xasay Usmiyevin oğlu II kn. Mehdiqulu xanın epitafiyası:

Deriğ əz gərdeş-e dovran-e ğəddar /ke delha həmçuqol əz vey por əz xar/ Xəzan şod bağ-e İbrahimxəlil xan/ beyəford əz səmuyəş sərv-e qolzar/ Gerami nam-e Mehdi xan-e sani/ ke bud şəhriyar-e pak rəftar/ Fi 26 cəmadi əl-əvvəl dər səne-ye 1318 mota-beq-e be həştom sentaber 1900.



*Natəvan oğlu Mehdiqulu və qızı Xanbikə ilə*

**Tərcüməsi:** Qəddar dünyanın dövranından əfsus olsun ki, ürəklər gül kimi ondan tikanla doludur. /İbrahimxəlil xanın bağı xəzan oldu./ Gülzar sərvi onun zəhərindən soldu. / İkinci Mehdiqulu xanın əziz adı/ hökmdar ki, pak, təmiz rəftarlı idi. / 26 cəmadi ül-əvvəl ayı 1313-cü hicri ili 8 sentyabr 1900-cü ilə mütabiqdir.

**6. Yenə orada.**

Cavanşir Abbas bəyin epitafiyası:

Huva əl-baqi. Koll mən əleyha fanə. Əl-mərhum əl-məğfur Abbas bəy bin mərhum İbrahim xan 1206.

**Tərcüməsi:** O (Allah) əbədidir. Onun (yer) üzərində nə varsa puç olacaqdır./Quran, 55-26/. Mərhum, bağışlanmış Abbas bəy ibn Şeyxəli ağa ibn mərhum İbrahim xan. 1206.

1206=1791-92 il.

**7. Yenə orada.**

Podpolkovnik Kərim ağanın epitafiyası:

Məzar-e mərhum-e məbrur Kərim ağa vələd-e mərhum Məhəmməd Qasım ağa 7 məhərrəm vəfat nmud 1325.

Və fədət əla əl-Kərim biğeyr zad min əl-həsənat və-l-qəlb əssəmim fəhməl əl-zad fəth koll şeyyin iza kan əl-vfud əla əl-Kərim.

Ey, bər qonəhkar dər-e rəhmət-e pərva /Dər xane-ye nemət.../

Şəxs-e kərim dəst-e tohi suy-e dərgəhət/ Onra ke-u nəhade tora bəhrə-e illəti.

**Tərcüməsi:** Rəhmətlik Məhəmməd Qasım ağanın oğlu, günahları bağışlanmış, Allaha inanan Kərim ağanın məzarıdır. 7 məhərrəm 1325-ci ildə vəfat etmişdir.

Allaha təslim oluram. Yaxşı işlərə, səmimi qəlbə malik olmayanlar, əyər Allaha itaət etsələr, hər şey əldə edə bilərlər.

Ey (İlahi), günahkara rəhmət qapısını aç. /Nemət süfrəsindən.../ Kəramətli şəxs əli boş dərgahın qarşısındadır./ Onu ki, o (özündən sonra) qoyub sənin əlində alət olacaqdır.

* * *

Çarizmin ağır müstəmləkəçilik siyasəti nəticəsində Azərbaycan xanlarının oğulları girov kimi Peterburqa aparılır və onlara hərbçi təlim-tərbiyəsi verilirdi. Onlardan çoxu general, polkovnik kimi yüksək hərbi rütbələr almışdılar. Bəziləri çar tərəfindən knyaz kimi fəxri adlara layiq görülmüşdülər.

Kitabələrdən göründüyü kimi, Qarabağ xanı İbrahimxəlil xanın oğlu Mehdiqulu xan general, Xasay Usmiyev knyaz, general, onun oğlu II Mehdiqulu xan knyaz, Məhəmməd Qasım ağanın oğlu Kərim ağa polkovnik rütbəsinə layiq görülmüşlər.

Beləliklə, Azərbaycan oğulları öz iradələrinin əksinə olaraq, çar Rusiyasına xidmət etməyə məcbur edilirdilər.

**Məşədixanım NEMƏT**
**AMEA-nın müxbir üzvü**
*"Elm" qəzeti, 25 dekabr 2001-ci il*



***Qarabağ xanlarının övliya qəbiristanlığı. Ağdam***